# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

# VAKANSİYA ELANI

## Enerji nəzarət müfəttişi

**Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.**

VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- Enerji təchizatının etibarlılığının, enerji sisteminin verdiyi istilik enerjisi sərfi rejimlərinin yerinə yetirilməsinə nəzarət edir;
- İstilik enerjisindən səmərəli istifadəni, istilik qurğularının texniki vəziyyəti və onların istismarı üzrə işlərin təhlükəsiz görülməsini tənzimləyir;
- Texniki istismar və təhlükəsizlik texnikası qaydalarının və energetikaya dair digər normativ – hüquqi aktların tələblərinə əməl olunmasına nəzarət edir;
- İstehlakçıların istilik qurğularının şəbəkələrinə qoşulması üzrə verilmiş texniki şərtlərin yerinə yetirilməsinə nəzarət edir;
- Yeni və ya yenidən qurulmuş istilik enerjisi qurğularının istismara buraxılmasının həyata keçirilməsi məqsədilə onların mövcud qaydalara və texniki şərtlərə uyğunluğu üzrə baxışlar keçirir;
- Yenidən qurulmuş istilik enerjisi qurğularına baxış zamanı aşkar olunmuş hüquqpozmalara görə İXM-nə əsasən protokol tərtib edir;

TƏLƏBLƏR:

- Ali təhsil (avtomatika, elektroenergetika, elektronika, enerji mühəndisliyi və s. müvafiq ixtisaslar üzrə);
- Yaş həddi 25-45 aralığı;
- İxtisası üzrə azı 3 il iş stajı;
- Microsoft Office proqramlarında işləmə bacarığı;
- Rus dilini bilməsi arzuolunandır;
- Hərbi xidməti keçmiş və hərbi mükəlləfiyyətli olan namizədlərə üstünlük veriləcəkdir;
- Elektrik stansiyaları, transformator, sayğaclar və müvafiq qurğular haqqında ətraflı biliyə malik olmalıdır;
- Beynəlxalq standartlara uyğun elektrik layihələri və simvolları oxumağı bacarmalıdır;
- Vətəndaşlarla işləmə, fikrini düzgün ifadə etmə və münaqişəli məsələləri həlletmə bacarığı olmalıdır;

DİGƏR:

- Əmək haqqı yüksəkdir və müsahibənin nəticəsinə əsasən müəyyən olunacaqdır;
- İş qrafiki: 09:00 – 18:00 / nahar fasiləsi 13:00 – 14:00;
- İstirahət günləri: şənbə və bazar günləri;
- Məzuniyyət müddəti: 30 təqvim günü

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini foto ilə birlikdə tenzimleme@minenergy.gov.az poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (enerji nəzarət müfəttişi) qeyd edin.